**UOT: 338.43.01,338.432**

*Nigar Rəhman qızı HÜSEYNOVA*
*Doktorant, Bakı Biznes Universiteti,*
*E-mail: nigarrahmanovna@gmail.com*

# QİDA SƏNAYESİ MƏHSULLARININ İNKİŞAFINA VƏ FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

*Xülasə*

**Tədqiqatın məqsədi** – Müasir dövrdə qida sənayesi məhsullarının inkişafına və formalaşmasına təsir edən amilləri nəzərə alaraq təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** - araşdırılan sahəyə sistemli və kompleks yanaşma, habelə müxtəlif aspektlərdən müqayisəli təhlil, ümumiləşdirilmə və qiymətləndirilmə ilə bağlı metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – alınmış nəticələrdən qida sənayesi məhsullarının inkişafına və formalaşmasına mane olan nəzəri və praktiki problemlərin həll olunmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – Böyük Vətən müharibəsində Azərbaycanın şanlı ordusunun qələbəsi ilə işğaldan azad olunmuş ərazilər ilə genişlənən ərzaq resurslarını nəzərə alaraq qida sənaye məhsullarının inkişafı üzrə təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə araşdırılan sahələrin təhlili üzrə dünya təcrübəsi tədqiq olunmaqla müasir şəraitin tələblərinə uyğun yanaşmalar formalaşdırılmışdır. Azərbaycanda qida məhsullarının Ümumi Daxili Məhsulda xüsusi çəkisinin artım dinamikası təhlil edilmiş, bu sahədə tənzimləmənin optimallaşdırılması ilə qida sənaye məhsullarının inkişafı ilə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür.

***Açar sözlər: qida məhsulları, yeyinti sənayesi, ərzaq, kənd təsərrüfatı, aqrar sektor.***

## *Giriş*

Yeyinti sənayesi iqtisadi, sosial, ekoloji və siyasi məsələlərin həllinə yönəlmiş ərzaq kompleksinin elementi oldugundan, bu kompleksin fəaliyyətinin səmərəliliyi və inkişaf səviyyəsi bütün milli iqtisadiyyatın iqtisadi artım sürətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda, ərzaq kompleksinin inkişaf trayektoriyası ölkədə makroiqtisadi vəziyyətlə, aqrar və struktur siyasətindəki prioritetlərlə, sahələrarası nisbətlərlə və bir çox amillərlə şərtlənir. Ümumiyyətlə, ölkənin ərzaq kompleksi üçün həm kompleksin sahələri arasında yüksək texnoloji fərqlilik, həm də sahə daxilində keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə görə fərqləndirilməsi səciyyəvidir. Sahələrin inkişafının, iqtisadiyyatın sahə strukturunun, onun sahələrarası tarazlığının tədqiqinə müxtəlif nəzəri yanaşmalar movcuddur .

Sahələrin fəaliyyətinin xüsusiyyətlərini və onlar arasında qarşılıqlı əlaqələrin formalaşmasını əks etdirən əsas istiqamət sahə bazarlarının nəzəriyyəsidir. Sahə bazarlarının nəzəriyyəsi iqtisadiyyatın aparıcı sektorları ilə yanaşi həm də aqrar-sanaye sferası, qida sənayesi, ət, süd sənayesi kimi kiçik bölmələr də daxil olmaqla sahələrdə özünü göstərən bu və ya digər bazar strukturların yaranması, formalaşması və müyyən amillərlə bağlı siradan çıxması şərtlərinin öyrənilməsi ilə məşğul olur. Sahə bazarlarının nəzəriyyəsi bazar strukturlarının müxtəlif növlərinə əsaslanaraq, bu bazarda bu və ya digər vəziyyətin nə üçün yarandığını izah edərək, konyunkturanın inkişaf perspektivlərini, qiymətlərin, malların həcmlərinin və keyfiyyətinin ümumi mümkün dinamikasını, həm sahə üçün, həm də bazarın ayrı-ayrı iqtisadi elementləri üçün reklam xərclərinin dəyişməsini izah edir. Bu mənzərə bazarın sahənin dövlət tərəfindən tənzimlənməsi məsələsinin həlli üçün əsasdır.

Sənaye bazarı strukturları nəzəriyyəsində bazar proseslərinin istehsalçıların fəaliyyətini istehlak tələbatını ödəmək üçün necə istiqamətləndirdiyini, bu proseslərin necə pozulduğunu, iqtisadiyyatın məhsuldarlığının müəyyən ideal təsəvvürə uyğun olması üçün necə tənzimlənə biləcəyini müəyyən edir. Bazar strukturlarının iqtisadi elementlərinin sayı və məhsulun növləri üzrə ənənəvi

bölgüsü Sahə bazarlarının nəzəriyyəsinə yeni kateqoriyalarla - sənayeyə giriş maneələrinin səviyyəsi, satıcıların və alıcıların məlumatlılıq dərəcəsi ilə tamamlanır. Həmçinin son vaxtlar mezoiqtisadi nəzəriyyə çərçivəsində sahələrin tədqiqatı geniş yayılmışdır. Sahələrin və onların qarşılıqlı əlaqələrinin mezosistem kimi təhlili texniki-texnoloji xüsusiyyətlərin (texnoloji strukturun səviyyəsi, sahənin maddi-texniki təminatı, emal xammalının xüsusiyyətləri, innovasiyaların tətbiqi) nəzərdən keçirilməsini planlaşdırır və bu amillərin nəzərə alınması ilə şərtlənir:

- funksional xüsusiyyətləri (müəssisələrin strukturu, inkişafın qeyri-bərabərliyi və sahələrarası mübadilənin qeyri-bərabərliyi, investisiya cəlbediciliyi);

- institusional xüsusiyyətləri (giriş maneələri, mülkiyyət hüquqlarının qorunması, dövlət təsir səviyyəsi, sahələrarası və sahədaxili əlaqələrin forma və inkişaf səviyyəsi). [6]

Müasir ərzaq sistemini milli iqtisadiyyatdan kənarda ayrıca, təcrid olunmuş inkişaf edən və fəaliyyət göstərən bir sistem kimi təsəvvür etmək mümkün deyil. Onun inkişafının obyektiv əsası əmək bölgüsüdür və kənd təsərrüfatını, qida sənayesini və iqtisadiyyatın onlarla əlaqəli sahələrini birləşdirən sahələrarası istehsal kooperasiyasıdır. Bu sahələr həm istehsal vasitələrini təmsil edir, həm də istehsal üçün bütün lazımi texniki şəraiti yaradır, digər tərəfdən isə ərzaq bazarlarını formalaşdırır və ərzaq məhsullarını istehlakçıya çatdırır.

Ərzaq kompleksinin inkişafı problemlərinin tədqiqində qarşıya çıxan əsas məsələ təkcə onun sahə heyəti deyil, həm də inteqrasiya olunmuş birləşmələrin inkişafı və istehsalatda, emalda, nəqldə, ərzaq kompleksinin son məhsulunun satışında və onların arasında xalis gəlirin bölüşdürülməsində iştirak edən sahələr arasında qarşılıqlı əlaqədə formalaşan real mövcud münasibətlərin olmasıdır. Əksər iqtisadçılar hesab edirlər ki, dəyişikliklər nəticəsində ərzaq kompleksinin bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının və yeyinti sənayesinin ilkin kənd təsərrüfatı xammalının emalı ilə məşğul olan sahələrinin daha da dezinteqrasiyası (hissələrə bölünməsi) baş verib. [6]

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununa görə yeyinti məhsullarına ərzaq xammalı, qida məhsulları və əlavələri (inqredientləri), tamlı mallar qrupuna daxil edilmiş məhsullar aid edilir. Ərzaq xammalına bitki, heyvan, mikro-bioloji və mineral mənşəli məhsullar, habelə qida məhsullarının istehsalında istifadə edilən sular, qida məhsullarına isə insanlar tərəfindən təbii və ya emal edilmiş halda istifadə olunan məhsullar aid edilir. [37]

**Azərbaycan iqtisadiyyatında sənayeləşmə iqtisadi siyasətin prioriteti kimi**

Məlumdur ki, sənaye bu gün əksər ölkələrdə iqtisadi siyasətin başlıca istiqamətlərindəndir. Ümumi məhsulda sənayenin xüsusi çəkisi yüksək olmaqla bu sahəyə irihəcmli investisiyalar yatırılır, sahəyə texnoloji yeniliklər daha çox tətbiq olunur, ticarətdə sənaye məhsullarının idxal və ixracı üstünlük təşkil edir. Hazırda dünyada işçi qüvvəsinin əksəriyyəti sənaye sahələrində cəmləşib. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da sənayeləşmə iqtisadi siyasətin prioritetlərindən biridir.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinin əsası ötən əsrin 70-80-ci illərində Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müstəqilliyin ilk illərində ölkədə baş vermiş böhran, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı iqtisadiyyatın digər sahələrində olduğu kimi, sənayedə də tənəzzülə səbəb olmuş, sənaye istehsalının həcmi və çeşidi azalmışdır. Sənayenin yenidən canlanmasının ən yeni tarixi imzalanan “Əsrin müqaviləsi” ilə başlanmışdır. 1994-cü ilin 20 sentyabr tarixində imzalanmış “Əsrin müqaviləsi” ölkədə neft-qaz sənayesini inkişaf etdirməklə yanaşı, qeyri-neft sənayesinin inkişafına da təkan vermişdir. Sənaye sahəsində görülən məqsədyönlü tədbirlər nəticəsində 1997-ci ildən başlayaraq sənaye istehsalında artım qeydə alınmışdı. Bu dövrdə qiymətlərin liberallaşdırılması, sənaye müəssisələrinin özəlləşdirilməsi həyata keçirilmiş, bazar iqtisadiyyatı institutları yaradılmışdır. Şahdəniz, Bakı-Tbilisi-Ceyhan kimi mühüm layihələrin əsası da məhz bu dövrdə qoyulmuş, bir sıra iri sənaye müəssisələri yaradılmışdır. Azərbaycanda sənayeləşmə yüksəlmiş, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 2003-2020-ci illərdə sənayenin regional strukturunun təkmilləşdirilməsi əsas prioritetlərdən olmuş, Azərbaycan təbii qaz və elektrik, enerjisi idxalçısından ixracatçıya, Avropanın enerji təhlükə-

sizliyinin təmin olunmasında etibarlı tərəfdaşa çevrilmiş, yeni istifadəyə verilmiş elektrik stansiyaları hesabına elektrik gücləri artmışdır. Ənənəvi istehsal sahələrinin fəaliyyəti genişlənmiş, yeni istehsal sahələri yaradılmış, əsas qida məhsulları və inşaat materialları ilə özünütəminat səviyyəsi yüksəlmişdir. Bakı-Tbilisi Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəmərləri istifadəyə verilmiş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri çərçivəsində infrastruktur layihələri həyata keçirilmişdir.

Statistik göstəricilərin təhlili gösdərir ki, respublikamizda əsas ixrac potensialına malik olan məhsullarımız əsasən Rusiya Federasiyası və digər postsovet ölkələrindəki bazarlara ixrac edilmişdir. Lakin müstəqlliyin ilk illərində bu satış bazarlarının itirilməsi iqtisadiyyatımızın müəyyən müddət geriləməsinə səbəb olmuşdur. Müstəqilliyimizin sonrakı 1995-1996-cı illərində həyata keçirilmiş iqtisadi islahatlar, məqsədli proqramlar qəbul edilməsi yeyinti sənayesinin inkişafına təkan vermiş, ölkədə yerli və xarici şirkətlərlə birlikdə fəaliyyət göstərən çoxsaylı yeyinti sənayesi müəssisələri yaranmışdır. Bu baxımdan beynəlxalq bazarlarda tələb olunan və geniş ixrac potensialına malik olan "Azərsun Holding", "Şampan şərabları", "Caspian Fish", "European Tobacco-Baku", "Qəbələ fındıq emalı", "Dəvəçi broyler ", "Az-Granata" və s. müəssisələri göstərmək olar.

Hal-hazırda Azərbaycan Respublikasının yeyinti sənayesinin, eləcə də sənayenin perspektiv iqtisadi sahə kimi qarşısında duran mühüm vəzifə sosial-iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində nail olunmuş iqtisadi artım göstəricilərinin stabilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi, bütünlükdə ölkənin,həmçinin əhalinin ərzaq resurslarına olan tükənməz tələbatının maksimum səviyyədə tam və dolğun ödənilməsini təmin etməkdən ibarətdir. Bu vəzifələrin icrası və həyata keçirilməsi, yeyinti sənayesinin sosial-iqtisadi inkişaf problemlərinin həlli məqsədilə "Azərbaycan Respublikası regionlarının 2004-2008-ci illərdə sosial-iqtisadi inkişafı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı", "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı","Azərbaycan 2015-2020: Gələcəyə Baxış" inkişaf konsepsiyaları, normativ-hüquqi aktlar, sərəncamlar və qərarlar qəbul edilmişdir. Bütün bu proqramların qəbulu və icrasının əsas məqsədi yeyinti sənayesinin inkişafı, yerli məhsul istehsalının genişləndirilməsi, yeni iş yerlərinin açılması (məşğulluğun təmini, işsizliyin aradan qaldırılması, bununla da əhalinin sosial rifah səviyyəsinin yüksəldilməsi), əhalinin yeyinti sənayesi məhsullarına olan tələbatının ödənilməsi və dövlət büdcəsinin formalaşmasında neft sektorundan asılılığın azaldılmasıdır.

**Ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi əsasları**

Azərbaycanda yeyinti məhsullarının keyfiyyətinin idarə edilməsi, istehsalı və bazarının təşkili kimi məsələlərlə yanaşı ərzaq təhlükəsizliyinin təmin edilməsinin hüquqi əsasları da Azərbaycan Respublikasının "Yeyinti məhsulları haqqında" Qanunu ilə müəyyən edilir. Burada əhalinin ərzaq təhlükəsizliyi-ölkə əhalisinin sağlamlığı və fəaliyyəti üçün vacib olan yeyinti məhsullarına tələbatının təmin edilməsi məqsədi ilə dövlətin həyata keçirdiyi iqtisadi, hüquqi və təşkilati tədbirlər sistemi mənasını ifadə edir. "Yeyinti məhsulları haqqında" Qanunun "Əhalinin ərzaq təhlükəsizliyi" başlıqlı beşinci fəslində göstərilmişdir ki (maddə 17), Azərbaycan dövləti beynəlxalq hüquq normalarına uyğun olaraq xalqın və hər bir vətəndaşın ərzaq təhlükəsizliyini müvafiq icra hakimiyyəti orqanı vasitəsilə təmin edir. Qanunda bu istiqamətdə dövlətin vəzifələri də təsbit edilmişdir.

Bu vəzifələr aşağıdakılardır:

- yeyinti məhsullarının istehsalının artırılması və ərzaq bazarının tənzimlənməsi sahəsində dövlət siyasətini həyata keçirmək;
- əhalinin ərzaq təhlükəsizliyi barədə məqsədli dövlət proqramları hazırlamaq va icrasını təmin etmək;
- yeyinti məhsulları üzrə dövlət ehtiyatları yaratmaq, onların formalaşmasını, saxlanmasını, istifadəsini və tənzimlənməsini təşkil etmək;

- ərzaq və xammal kimi istifadə edilən yeyinti məhsullarının istehsalı və istifadəsi üzrə dövlət və regional balansları hazırlamaq və əhalinin yeyinti məhsullan ilə təminatını proqnozlaşdırmaq;
- ərzaq böhranı və fövqəladə hadisələr zamanı əhalinin yeyinti məhsulları ilə təchizatını tənzimləmək, o cümlədən normativ ərzaq bölgüsü və digər xüsusi təminat rejimləri müəyyən etmək;
- ərzaq bazarının tənzimlənməsi və yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində normativ-hüquqi aktlar qəbul etmək;
- əhalinin yeyinti məhsulları ilə təmin edilməsində dövlət orqanlarının və bələdiyyələrin fəaliyyətini əlaqələndirmək;
- əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində digər vəzifələri həyata keçirmək. [37]

**Yeyinti sənayesinin inkişaf və formalaşmasına təsir edən amillər**

Göstərilənlərlə əlaqədar, əhalinin ərzaq təhlükəsizliyinin dövlət tənzimlənməsi tədbirləri həyata keçirilir. İqtisadi tənzimləmədə icra orqanları tərəfindən tərtib olunan dövlət və regional ərzaq balansları əsasında, yeyinti məhsulları istehsalının stimullaşdırılması, keyfiyyət göstəricilərinin normallaşdırılması və sertifikatlaşdırılması; yeyinti məhsulları istehsalının, tədarükünün, satışının, habelə idxal və ixracının uçotu və nizamlanması; rəqabətin inkişaf etdirilməsi, yerli istehsalçıların hüquq və mənafelərinin qorunması; istehsalçıdan istehlakçılara çatdırılmasına qədər yeyinti məhsullarinin keyfiyyətinə və təhlükəsizliyinə nəzarət; ərzaq proqramlarının hazırlanmasının və həyata keçirilməsinin xarici sərmayələr də cəlb edilməklə maliyyələşdirilməsi nəzərdə tutulur.

Bununla yanaşı yeyinti sənayesinin inkişaf və formalaşması bir sıra amillərin nəzərə alınmasını tələb edir:

1. İlkin emal sənayesi müəssisələri xammalın əsas tədarükçüsü olan kənd təsərrüfatının fəaliyyətindən birbaşa asılıdır. Kənd təsərrüfatı müəssisələrinin fəaliyyəti mövsümi xarakter daşıyır, bu istehsal yüksək qeyri-müəyyənliklə səciyyələnir;
2. Yeyinti sənayesi müəssisələrinin əksəriyyətinin məhsulları strateji planlaşdırmada mühüm metodoloji aspekt olan material tutumudur. Məhsulun maya dəyərində maddi xərclərin payı 60% - 80% arasında dəyişir. Bununla əlaqədar olaraq, müəssisələrin fəaliyyətinə qiymət, keyfiyyət və çatdırılma şərtləri xüsusi təsir göstərir;
3. Yeyinti sənayesinin bir çox müəssisələri üçün xammal və materiallara vəsait qoyma və məhsul üçün ödəniş edilməsinə (məsələn, meyvə-tərəvəz, yağ-piy sahələrində və s. tez xarab olan xammalın böyük ehtiyatının yaradılmasının obyektiv zəruriliyi mövcuddur;
4. Bəzi yeyinti müəssisələri üçün hazır məhsullara tələbatın dəyişməsi xarakterikdir. Bununla əlaqədar müəssisənin strategiyasının hazırlanması zamanı məhsul və mövsümlərə tələbatın elastikliyinin təhlili və istehsalın diversifikasiya imkanlarının nəzərə alınması zəruri hesab edilməlidir;
5. Ərzaq sənayesi məhsullarının əsas istehlakçısı kimi əhalidir. Hazırda, bir çox yeyinti müəssisələrinin inkişafını məhdudlaşdıran bazarda alıcılıq qabiliyyətinin aşağı olması istehsal xərclərinin sərt planlaşdırılmasını, xərclərin azaldılması ehtiyatlarının axtarışını və həyata keçirilməsini ön plana çıxarır;
6. Yeyinti sənayesi müəssisələri müəyyən texnologiyadan istifadə etmək üçür öz strategiyasını qurduğundan, onun dəyişdirilməsi yalnız vaxt və resursların əhəmiyyətli xərcləri ilə həyata keçirilə bilər, onlar üçün bazarın sərhədləri mümkün qədər təxirə salınmalıdır. Bu, qeyri-müəyyənliyi aradan qaldırmağa, istehsalı mütərəqqi texnoloji dəyişikliklərə hazırlamağa, məhsulun keyfiyyətini yaxşılaşdırmağa imkan verir. Buna görə də yeyinti sənayesi müəssisələrinin fəaliyyətində şaquli inteqrasiya böyük əhəmiyyət kəsb edir, inteqrasiya strategiyası isə inteqrasiya olunan müəssisələrin uzunmüddətli məqsədlərinin yaxınlaşmasına və onların qarşılıqlı təsirinin artırılmasına yönəldilməlidir.

### *Nəticə*

Milli iqtisadiyyatın sahə bölgüsünün yuxarıda göstərilən metodoloji əsasları yeyinti sənayesinin müstəqil tədqiqat obyekti kimi ərzaq kompleksi sistemində rolunu və yerini müəyyənləşdirməyə, onun strateji potensialını və inkişaf mexanizmini işləyib hazırlamağa imkan verir. Beləliklə, yeyinti sənayesi bir sıra spesifik cəhətlərə və formalaşma amillərinə malik olan ərzaq sisteminin bir sahəsi və ölkənin ərzaq müstəqilliyinin təmin edilməsinin vacib şərtidir.

Ona görə də yeyinti sənayesinin müasir vəziyyəti iqtisadi inkişafın səmərəliliyini və dayanıqlığını müəyyən etdiyinə görə, onu ölkənin ərzaq kompleksi sistemində kənd təsərrüfatı ilə birlikdə ərzaq təhlükəsizliyini, onun vasitəsilə isə iqtisadi və milli müstəqilliyi, son nəticədə ölkənin dövlətçiliyini təmin edən xüsusi strateji sosial-əhəmiyyətli sahələr sırasına aid edirlər. Bu xüsusiyyətlər nəzərə alınmaqla, strateji potensialın tədqiqinə konseptual yanaşmalar iqtisadi elmin ən yeni nailiyyətləri və iqtisadi inkişafın cari mərhələsində sahənin qarşısında duran konkret vəzifələrin xüsusiyyətləri nəzərə alınmaqla, sahə xüsusiyyətlərinə uyğun olaraq gələcək inkişafı tələb edir.

Yuxarıda qeyd olunan qida sənayesi məhsullarının inkişafına və formalaşmasına təsir edən amilləri nəzərə alsaq ümumi nəticəyə gəlmək olar ki, müəssisənin strategiyasının hazırlanması zamanı məhsul və mövsümlərə tələbatın elastikliyinin təhlili və istehsalın diversifikasiya imkanlarını nəzərə almaq, mövsüm dəyişikliklərinin istehsal prosesinin həcminə təsirini minimallaşdırmaq üçün yeni innovativ texnologiyalardan istifadəni artırmaq zəruri hesab edilməlidir.Həmçinin bazarda alıcılıq qabiliyyətinin aşağı olması istehsal xərclərinin sərt planlaşdırılmasını, xərclərin azaldılması ehtiyatlarını axtarmaq və həyata keçirmək lazımdır.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2011. 768.s.
2. Azərbaycan Respublikasının “Ərzaq Təhlükəsizliyi Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam. Bakı, 2001. 31 s.
3. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”. 27 fevral 2014-cü il tarixli Fərman.
4. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi” Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı. Bakı, 2016. 111 s.
5. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı. Bakı. 2016. 177 s.
6. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun 50 illik yubileyinə həsr olunmuş “Aqrar iqtisadiyyatın aktual problemləri” mövzusunda Beynəlxalq Elmi-Praktiki konfransın materialları. Bakı,2012. 581 s.
7. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”. Bakı, 26.12.2014
8. Azərbaycan statistik göstəriciləri 2019. Bakı. 2019. 788 s.
9. Azərbaycan statistik göstəriciləri 2021.Bakı,2021.134 s.
10. Azərbaycan statistik rəqəmlərlə. Bakı, 2021,137 s.
11. Azərbaycanın Kənd Təsərrüfatı. Bakı, 2021.772 s.
12. Azərbaycan sənayesi. Bakı, 2021, 243 s.
13. Azərbaycanın xarici ticarəti: DSK-nın məcmuəsi. Bakı, 2019. 213 s.
14. Azərbaycanın xarici ticarəti. Bakı, 2021. 243 s.
15. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası”, Bakı, 29 dekabr 2012
16. Azərbaycan Respublikasi regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət Proqramı, Bakı, 29 yanvar 2019-cu il.
17. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Fərman. Bakı, 07.07.2021.
18. Aqrar sahə modernləşmə dönəmində: (problemlər və onun həlli yolları). Bakı. 2009. 505 s.

19. Abbasov,İ.M., Əliyev,T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, 2018. 267 s.
20. Abbasov,V.H. Emal sənayesində sahələrarası əlaqələrin inkişaf problemləri.Az.ETKTİ və Tİ-nin elmi əsərləri. Bakı, 2007. 449 s.( s.57)
21. Abbasov, A.F. Ərzaq təhlükəsizliyi (Monoqrafiya).Bakı,2007.602 s.
22. Ataşov, B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı,2005. 336 s.
23. Ataşov,B.X.Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) Bakı.2017.536 s.
24. Böyük İqtisadi Ensiklopediya.(Baş redaktor akademik Z.Səmədzadə) Bakı. 2012. I cild 632 s., II cild 632 s, III cild 608 s., IV səh. 592 s. V cild. 632 s.
25. Cavadov,N.Ə. Aqrar sahədə struktur dəyişiklikləri. Bakı. 2009. 440 s.
26. Əhmədov,G.Ə. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri. Bakı,2010. 484 s.
27. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İkinci kitab. may 1994-dekabr 1994. Bakı, 1997-ci il, 604 s.
28. Əliyev, R.M. Aqrar bazar və ərzaq təhlükəsizliyi məsələləri. Bakı,2003. 102 s.
29. Əmiraslanov, A.A. Dayanıqlı ərzaq təminatının iqtisadi əsasları. Bakı, 2013.232 s.
30. "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı. 2011. 377 s.
31. Heydər Əliyev və dövlətin aqrar siyasəti. Bakı. 2003. 776 s.
32. Hüseynov, T.H. Azərbaycanda investisiyalar: gəlirlər, investisiyalar, sənayeləşdirmə, məşğulluq. Bakı. 2009. 380 s.
33. Həsənov, Q.H. Sahibkarlığın inkişafı və iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Bakı. 2011. 268 s.
34. Hüseynova, M.R. "Yeyinti sənayesində təşkilati-iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi" İqtisad üzrə fəlsəfə doktoruna təqdim edilmiş avtoreferat.Bakı,2022.26 s.
35. Hacızadə, E.M. Dünya iqtisadiyyatı və Azərbaycan. Dərslik.Bakı,2018.912 s.
36. Xacə Nəsrəddin Tusi. Əxlaqi – Nasiri. Bakı. 1989. 254 s.
37. Xəlilov, H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və modernləşmə şəraiti. Bakı, 2005. 228 s.
38. İbrahimov, İ.H.Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016. 655 s.
39. İbrahimov, İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri. Bakı, 2005. 360 s.
40. İbrahimov, İ.H. Regionlarda sahibkarlığın inkişaf meyilləri və xüsusiyyətləri. Bakı. 2007. 296 s.
41. İbrahimov, İ.H., Kərimov K.S. Sənayedə investisiya və innovasiya fəaliyyəti. Bakı, 2017, 254 s.
42. İbrahimov,İ.H.Regionların və işğaldan azad edilmiş ərazilərin inkişaf istiqamətləri. Bakı, 2022. 240 s
43. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı,19 sentyabr 1995.

***Нигяр Рахман кызы Гусейнова***
***докторант Бакинский Университет Бизнеса***
***E-mail:nigarrahmanovna@gmail.com***

## Факторы, влияющие на развитие и формирование продукции пищевой промышленности

*Резюме*

**Целью исследования** подготовить предложения и рекомендации с учетом факторов, влияющих на развитие и становление продукции пищевой промышленности в современную эпоху.

**Методология исследования** – использовались системный и комплексный подход к изучаемой области, а также методы, связанные со сравнительным анализом, обобщением и оценкой с различных сторон.

**Значимость исследования** - полученные результаты могут быть использованы для решения теоретических и практических задач, тормозящих разработку и формирование продуктов пищевой промышленности.

**Результатом исследования** является подготовка предложений и рекомендаций по развитию продукции пищевой промышленности с учетом расширяющихся продовольственных ресурсов и территорий, освобожденных от оккупации победой славной армии Азербайджана в Великой Отечественной войне..

**Оригинальность и научная новизна исследования** - изучен мировой опыт анализа исследуемых в статье направлений, сформированы подходы в соответствии с требованиями современных условий. Проанализирована динамика роста удельного веса продовольственных товаров в валовом внутреннем продукте Азербайджана, выдвинуты предложения и рекомендации, связанные с оптимизацией регулирования в этой сфере и развитием продуктов пищевой промышленности.

***Ключевые слова: продукты питания, пищевая промышленность, продукты питания, сельское хозяйство, аграрное хозяйство.***

***Nigar Rahman Hüseynova***
***PhD student, Baku Business University***
***E-mail: nigarrahmanovna@gmail.com***

## Factors affecting the development and formation of food industry products

***Summary***

**The aim of the study** is to prepare proposals and recommendations taking into account the factors affecting the development and formation of food industry products in the modern era.

**The research methodology** is a systematic and complex approach to the researched field, as well as methods related to comparative analysis, generalization and evaluation from various aspects were used.

**The significance of the study** - the obtained results can be used to solve theoretical and practical problems that hinder the development and formation of food industry products.

**The result of the study**- the preparation of proposals and recommendations for the development of food industry products, taking into account the expanding food resources and territories freed from occupation by the victory of the glorious army of Azerbaijan in the Great Patriotic War.

**Originality and scientific novelty of research** - the world experience in the analysis of the areas investigated in the article was studied, and the approaches in accordance with the requirements of modern conditions were formed. The growth dynamics of the specific weight of food products in the Gross Domestic Product in Azerbaijan were analyzed, suggestions and recommendations related to the optimization of regulation in this area and the development of food industry products were put forward.

***Key words: food products, food industry, food, agriculture, agrarian sector***